# Azərbaycan Mikromaliyyə Assosiasiyası

**Maliyyə hesabatları və auditor rəyi**
31 dekabr 2008-ci il tarixində tamamlanan il üzrə

**AZƏRBAYCAN MİKROMALİYYƏ ASSOSİASİYASI**

## MÜNDƏRİCAT

**Səhifə**


| | |
|---|---|
| MÜSTƏQİL AUDİTORUN RƏYİ | 3 |
| 31 DEKABR 2008-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə Vəziyyətinə dair Hesabat | 4 |
| Mənfəət və Zərər Hesabatı | 5 |
| Kapitalda Dəyişikliklər Hesabatı | 6 |
| Pul Vəsaitlərinin Hərəkəti Hesabatı | 7 |
| Maliyyə Hesabatlarına dair qeydlər | 8-25 |

Kapital Karden

Kaspian Plaza, 13 mərtəbə
Cəfər Cabbarlı küç., 44
AZ 1065, Bakı, Azərbaycan
Tel. : + 994 (12) 596 69 01
Fax : +994 (12) 596 69 03

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**

Azərbaycan Mikromaliyyə Assosiasiyasının İdarə Heyətinə

***Maliyyə hesabatları üzrə auditor hesabatı***

Biz Azərbaycan Mikromaliyyə Assosiasiyasının ("Assosiasiya") 31 dekabr 2008-ci il tarixinə təqdim edilən maliyyə vəziyyətinə dair hesabatı, həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər hesabatı, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

***Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti***

Rəhbərlik bu maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar aiddir: maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, fırıldaqçılar və ya yanlışlıqdan qaynaqlanan əhəmiyyətli kənarlaşmaların qarşısını almaq məqsədilə daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi; müvafiq mühasibat siyasətinin seçilməsi və tətbiq edilməsi; mövcud şərtlər altında məqbul mühasibat təxminlərinin irəli sürülməsi.

***Auditorun məsuliyyəti***

Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Həmin standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və qeydlərə dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurların auditorların mühafizəsindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisəsinin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud mühasibat siyasətinin uyğunluğunun və rəhbərliyin mühasibat təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, audit rəyimizi bildirmək üçün əsas verən kifayət qədər və uyğun auditor sübutu əldə etmişik.

***Rəy***

Bizim fikrimizcə, maliyyə hesabatları bütün mühüm aspektlər baxımından Azərbaycan Mikromaliyyə Assosiasiyasının 31 dekabr 2008-ci il tarixinə olan maliyyə vəziyyətini, onun fəaliyyətinin nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq həmin tarixdə başa çatan il üçün düzgün əks etdirir.

Kapital Karden
member firm of RSM International

Bakı, Azərbaycan

15 May, 2009

## MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR HESABAT
## 31 DEKABR 2008-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2008 | 31 dekabr 2007 (audit olunmamış) |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 10 | 30,427 | 36,262 |
| Debitor borclar | 11 | 4,468 | 6,164 |
| Əmlak və avadanlıqlar | 12 | 5,701 | 1,552 |
| Digər aktivlər | | 2,716 | 128 |
| Cəmi aktivlər | | **43,312** | **44,106** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR** | | | |
| İstifadə edilməmiş qrantlar | 13 | 13,968 | 37,075 |
| Kreditor borclar | 14 | 9,925 | 2,003 |
| Təxirə salınan gəlir | 15 | 7,864 | - |
| Cəmi öhdəliklər | | **31,757** | **39,078** |
| **KAPİTAL:** | | | |
| Bölüşdürülməmiş mənfəət | | 11,555 | 5,028 |
| Cəmi kapital | | 11,555 | 5,028 |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **43,312** | **44,106** |

**Rəhbərlik adından:**

**Jalə Hacıyeva**
**İcraçı Direktor**

15 May, 2009

Bakı, Azərbaycan

**Nigar Pirməmmədova**
**Maliyyə Meneceri**

15 May, 2009

Bakı, Azərbaycan

8-25-ci səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir. 3-cü səhifədə Müstəqil Auditorun Rəyi yer alır.

**AZƏRBAYCAN MİKROMALİYYƏ ASSOSİASİYASI**

# MƏNFƏƏT VƏ ZƏRƏR HESABATI
## 31 DEKABR 2008-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ
*(Azərbaycan manati ilə)*

| | Qeydlər | 31 dekabr 2008-ci bitən il üzrə | 31dekabr 2007-ci bitən il üzrə (audit olunmamış) |
|---|---|---|---|
| **GƏLİR** | | | |
| Üzvlük haqları | 4 | 39,000 | 22,735 |
| Təlimlər, kurslar və konfransdan gəlir | 5 | 167,533 | 20,675 |
| Qrant gəliri | 6 | 150,418 | 18,690 |
| **Cəmi gəlir** | | **356,951** | **62,100** |
| **XƏRCLƏR** | | | |
| Qrant proqramlarına çəkilən xərcləri | 6 | (150,418) | (18,690) |
| Digər əməliyyat xərcləri | 7 | (105,866) | (7,453) |
| **Cəmi xərclər** | | **(256,284)** | **(26,143)** |
| **GƏLİRLƏR** | | **100,667** | **35,957** |
| Digər gəlirlər | 8 | 1,004 | 6,259 |
| İnzibati xərclər | 9 | (95,144) | (39,320) |
| **İL ƏRZİNDƏ XALİS MƏNFƏƏT** | | **6,527** | **2,896** |

**Rəhbərlik adından:**

**Jalə Hacıyeva**
**İcraçı Direktor**

15 May, 2009

Bakı, Azərbaycan

**Nigar Pirməmmədova**
**Maliyyə Meneceri**

15 May, 2009

Bakı, Azərbaycan

8-25-ci səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir. 3-cü səhifədə Müstəqil Auditorun Rəyi yer alır.

## AZƏRBAYCAN MİKROMALİYYƏ ASSOSİASİYASI

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI
## 31 DEKABR 2008-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ
*(Azərbaycan manati ilə)*

| | Qeydlər | Bölüşdürülməmiş mənfəət |
|---|---|---|
| **31 dekabr 2006** (audit olunmamış) | | **2,132** |
| Xalis mənfəət (audit olunmamış) | | 2,896 |
| **31 dekabr 2007** (audit olunmamış) | | **5,028** |
| Xalis mənfəət | | 6,527 |
| **31 dekabr 2008** | | **11,555** |

**Rəhbərlik adından:**

**Jalə Hacıyeva**
**İcraçı Direktor**

15 May, 2009

Bakı, Azərbaycan

**Nigar Pirməmmədova**
**Maliyyə Menecerі**

15 May, 2009

Bakı, Azərbaycan

8-25-ci səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir. 3-cü səhifədə Müstəqil Auditorun Rəyi yer alır.

**AZƏRBAYCAN MİKROMALİYYƏ ASSOSİASİYASI**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI**
**31 DEKABR 2008-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Azərbaycan manati ilə)*

| | Qeydlər | 31 dekabr 2008-ci bitən il üzrə | 31 dekabr 2007-ci bitən il üzrə (audit olunmamış) |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL:** | | | |
| Vergidən əvvəlki mənfəət | | 6,527 | 2,896 |
| Düzəlişlər: | | | |
| Ümidsiz borclar üzrə ehtiyat | 11 | 8,493 | |
| Amortizasiya və köhnəlmə xərcləri | 12 | 695 | 517 |
| Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri | | 15,715 | 3,413 |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişmələr | | | |
| Əməliyyat aktivlərində (artımlar)/azalmalar: | | | |
| Debitor borcları | 11 | (6,797) | - |
| Digər aktivlər | | (2,588) | 2,841 |
| Əməliyyat öhdəliklərində artımlar/(azalmalar): | | | |
| Kreditor borcları | 14 | 7,922 | (4,602) |
| Alınmış və istifadə edilmiş qrantlar | 13 | (23,107) | 35,879 |
| Təxirə salınmış gəlir (qeyri-qrant fəaliyyəti) | 15 | 3,375 | - |
| Digər öhdəliklər | | - | (3,698) |
| Vergi tutulmalardan əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri: | | (5,480) | 33,833 |
| Ödənilmiş mənfəət vergisi | | - | - |
| Əməliyyat aktivlərindən mədaxil/məxaric olan pul vəsaiti | | **(5,480)** | **33,833** |
| **İNVESTİSİYA AKTİVLƏRİNDƏN PUL VƏSAİTİNİN HƏRƏKƏTİ** | | | |
| Əmlak və avadanlıqların alınması | 12 | (355) | - |
| Maliyyə aktivlərindən mədaxil/məxaric olan xalis pul vəsaiti | | **(355)** | **-** |
| XALİS PUL VƏ YA PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏKİ ARTIMLAR/(AZALMALAR) | | **(5,835)** | **33,833** |
| PUL VƏ PUL EKVİVALENTLƏRİ, ilin başlanğıcında | 10 | **36,262** | **2,429** |
| PUL VƏ PUL EKVİVALENTLƏRİ, ilin sonunda | 10 | **30,427** | **36,262** |

**Rəhbərlik adından:**

**Jalə Hacıyeva**
**İcraçı Direktor**

15 May, 2009

Bakı, Azərbaycan

**Nigar Pirməmmədova**
**Maliyyə Menceri**

15 May, 2009

Bakı, Azərbaycan

8-25-ci səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir. 3-cü səhifədə Müstəqil Auditorun Rəyi yer alır.

## 1. GİRİŞ

**Assosiasiya və onun əsas fəaliyyət**

"Azərbaycan Mikromaliyyə Assosiasiyası" İctimai birliyi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 29 noyabr 2004-cü il tarixdə Dövlət qeydiyyatına alınaraq 08 dekabr 2004-cü il tarixli 1104-Q3 -1639 saylı qeydiyyat şəhadətnaməsi almışdır. Həmin nazirliyin 05 yanvar 2005-ci il tarixli 11/21 sayda qeyri-kommersiya təşkilatlarının dövlət reyestrinə daxil edilmişdir.

Birliyin təsisçiləri 11(on bir) hüquqi şəxslərdən ibarət olmaqla aşağıdakı kimi olmuşdur (Üzvlərin ümumi yığıncağının 20 iyul 2004-cü il tarixli 01 saylı protokolu).

1. Mercy Corps İnternational, Bakı, Azərbaycan (2008-ci ildə onun üzvlüyü dayandırıldı);
2. ADRA Kredit MMC (2008-ci ildə onun üzvlüyü dayandırıldı);
3. Norveç Mikrokredit MMC;
4. CredAqro BOKT
5. İnkişaf üçün Maliyyə MMC
6. Dünyaya Baxış Azərkredit MMC (yeni adı Vijn Fond Azərkredit MMC);
7. AzeriStar Mikromaliyyə MMC;
8. Viator Mikrocredit MMC;
9. FİNCA Azərbaycan MMC;
10. Azərbaycan Mikromaliyyələşdirmə Bankı QSC( yeni adı Access Bank);
11. Shore Overseas Azərbaycan MMC (yeni adı TBC Kredit).

Assosiasiya Azərbaycan Respublikasının qeyri-hökümət təşkilatları (institutlar və fondlar) haqqında qanununa əsasən öz nizamnamə kapitalını yaratmamış, lakin öz fəaliyyətlərini yerinə yetirmək üçün təsisçilərin qərarına müvafiq olaraq 1500 AZN məbləğində illik sabit üzvlük haqqı əldə edir. Eyni zamanda, Təsisçilərin Ümumi Yığıncağının qərarlarlarına uyğun olaraq yeni üzvlər aşağıdakılardan ibarətdir.

- Naxçıvan Mikrokredit MMC;
- Qafqaz Kredit MMC;
- Aqrar Kredit MMC;
- Aqroinvest Kredit Birliyi;
- Ümid Kredit MMC;
- Dayaq Kredit MMC;
- Turan Bank;
- Texnika Bank;
- Unibank ASC;
- Royal Bank of Baku ASC;
- Azərdəmiryolbank ASC;
- Bank of Azərbaycan ASC;
- Azərbaycan Kredit Bank ASC;
- Parabank ASC;
- Bank Respublika ASC;
- "Invest Kredit" MMC;
- SBFIC (Əmanətlər Bankı üzrə Beynəlxalq Əməkdaşlıq Fondu)

Audit dövrünün sonu etibari ilə Assosasiyanın 26 (iyirmi altı) üzvü, eyni zamanda doqquz təsisçi üzvü mövcuddur.

Birlik Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən 01 fevral 2005-ci il tarixdə qeydiyyata alınaraq 0085494 nömrəli şəhadətnamə almışdır.

## 1. GİRİŞ (davamı)

Birlik 28 yanvar 2005-ci il tarixdə Dövlət Sosial Müdafiə Fondunun Binəqədi rayon şöbəsində qeydiyyata alınaraq 09-02874 sayda qeydiyyat nömrəsi verilmişdir. Hal-hazırda, Assosiasiya AR-nın DSMF-nun Bakı şəhəri üzrə hüquqi şəxslərlə iş departamentində qeydiyyata alınmış və müvafiq hesabatları həmin departamentinə təqdim edir.

Birlik qeydiyyatda olduğu ərazi üzrə 19 iyun 2006-cı il Əhalinin Məşğulluq Mərkəzində qeydiyyata alınaraq 2550 sayda qeydiyyat nömrəsi verilmişdir.

Bakı şəhəri Vergilər Departamentinin 2 saylı filialında qeydiyyata alınaraq 29 mart 2005-ci il tarixdə vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamə və 1000440631 saylı eyniləşdirmə nömrəsi (VÖEN) almışdır.

### Assosiasiyanın təşkilati strategiyası və məqsədləri

Azərbaycanda mikromaliyyə sektoru xarici investitorlar tərəfindən Azərbaycan bazarına yönəldilən külli miqdarda kapital axımı nəticəsində böyük sıçrayışla inkişaf edir.

Assosiasiyanın rolu üzvlərinin bu mühiti anlamalarına köməklik etməkdən və bütün mikromaliyyə sektorunun strukturunu yaratmaqdan ibarətdir. Azərbaycan Mikromaliyyə Assosiasiyası üzv Mikromaliyyə təşkilatlarının fəaliyyət həcmlərini gücləndirməyə və Azərbaycanda mikromaliyyə cəmiyyətinin maraqlarını artırmaq üçün effektiv kollektiv aksiyaları yerinə yetirməyə məqsəd qoymuş üzvlərdən ibarət təşkilatdır. Assosiasiya 2004-cü ildə qurulmuş və böyüyərək 26 üzv mikromaliyyə təşkilatına çatmışdır.

Assosiasiyanın təşkilati strategiyası, Assosiasiyanı 3 əsas strateji istiqamətləri vasitəsi ilə özünü təmin edən təşkilat kimi yaratmaqdan ibarətdir. Assosiasiyanın əsas strateji pillələri məhdudiyyətsiz gəlirlərini yeni məhsul və xidmətlər vasitəsilə artırmaq, stratejik əməkdaşlıq və mikromaliyyə sektorunun ekspert təşkilatı kimi görünmək kimi meyarlarla sıx bağlıdır.

Assosiasiya bu yöndə aparıcı təşkilatlardan biri olub, strateji foksunu orta və böyük həcmdə mikromaliyyə institutları üzərində cəmləmişdir və öz üzvlərinin ehtiyaclarını qarşılayacaq xidmətləri göstərmək üçün ekspertliyi mövcüddur. Assosiasiyanın 3 stratejik meyarı vardır, bunlar:

- İnnovativ mikromaliyyə məhsulları və xidmətərini inkişaf etdirmək;
- Qabaqcıl təcrübələrə əsaslanaraq mütəmadi olaraq öz üzvlərinə tədris keçmək;
- Azərbaycanda mikromaliyyə sahəsi üzrə ekspertliyini inkişaf etdirmək.

Assosiasiya öz strateji istiqamətləri, yeni məhsul və xidmət təklifləri vasitəsi ilə dayanıqlığı təmin edərək, qeyri mənfəət və kommersiya təşkilatları ilə strateji ortaqlığı inkişaf etdirərək nail olur.

### Assosiasiyanın fəaliyyət mühiti

Azərbaycan iqtisadiyyatı qlobal mənada neft qiymətindən asılıdır və bu səbəbdən də neftin qiymətindəki dalğalanmalar ölkə iqtisadiyyatına öz təsirini kifayət qədər göstərir. 2008-ci ilin ikinci yarımilliyində neftin qiymətindəki azalma iqtisadiyyatın ümumi inkişaf tendensiyasına mənfi təsir göstərə bilərdi.

Maliyyə bazarın şərtləri likvidliyin azalma nəticəsində baş vermiş mühüm ticarət böhranı ilə xarakterizə olunmuşdu. İlkin bazar zərbəsinin böyük ipoteka kreditləri verən Amerika Birləşmiş Ştatlarında meydana gəlməsinə baxmayaraq, bu qlobal şəkildə borc vəsaitəri ilə yenidən maliyyələşən fondlardan və qiymətli kağızlardan geniş istifadə edən bazar iştirakçılarına öz təsirini göstərmişdir. Maliyyə bazarlarına daxil olmaq üçün borc, kapital və borc vəsaitləri ilə yenidən maliyyələşən fondlardan istifadə edənlər kredit qıtlığına görə öz əməliyyatlarını maliyyələşdirməkdə çətinliklə üzləşə bilərlər.

## 1. Giriş (davamı)

Assosiasiyanın təsisçiləri bank və bank olmayan kredit təşkilatları olduğundan əsas məqsədi Azərbaycanda mikromaliyyə təşkilatlarının potensialının gücləndirilməsi, mikromaliyyə icmanın maraqlarının qorunması, qabaqcıl təcrübələrin tətbiq edilməsi və mikromaliyyə sahəsinin dayanıqlı inkişafının təşviq edilməsidir. Buna əlavə olaraq, mikromaliyyə xidmətlərinin təminatının şəffaflığının təşkil olunması və səmərəli birgə fəaliyyətlərin hüquqi cəhətdən müdafiəsinin tamamilə təmin olunması məqsədləri də mövcuddur.

Əlavə olaraq, Assosiasiyanın gəlir mənbəyi bankların və mikromaliyyə institutlarının maliyyə vəziyyəti ilə sıx bağlıdır. Mikromaliyyə sektoru iqtisadi şəraitlərdə baş verən dəyişikliklər qarşısında həssasdır. Hal-hazırda rəhbərlik bank sektorunda iqtisadi tendensiyaları və inkişafı əvvəlcədən proqnoz etmək bacarığına qadir deyildir. Beləki, əgər Azərbaycan bankçılıq sisteminin likvidliyində və etibarlılığına inamsızlıq olarsa bu öz təsirini Assosiasiyanın maliyyə vəziyyətinə təsir edə bilər.

Vergi, valyuta və gömrük qanunvericiliyi Azərbaycan Respublikasında baş verə biləcək intensiv dəyişikliklərin subyektidir. Assosiasiyalar qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq mənfəət vegisindən azaddır. Rəhbərlik vergi məcəlləsində gələcəkdə baş verə biləcək mümkün olan dəyişiklikləri proqnoz etməyə qadir deyil.

## 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİNİN XÜLASƏSİ

### TƏQDİMATIN ƏSASLARI

Hazırkı maliyyə hesabatları 31 dekabr 2008-ci il tarixindən qüvvədə olan Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") və 31 dekabr 2008-ci il tarixindən qüvvədə olan Beynəlxalq Maliyyə Standartlarına Şərhlər Komitəsi ("BMHSŞK") tərəfindən dərc edilən şərhlər əsasında hazırlanmışdır.

Bu maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı ("AZN") ilə təqdim edilir. Bəzi maliyyə alətlərinin ədalətli dəyəri istisna olmaqla, bu maliyyə hesabatları, tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır. İşgüzar fəaliyyəti əsasən Azərbaycan Respublikasında həyata keçirildiyinə görə Assosiasiyanın funksional maliyyə vahidi də Azərbaycan manatıdır. Assosiasiya mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və hesabatlara BMHS-na uyğunlaşdırmaq məqsədilə düzəlişlər verilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və passivlərin, gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırmaq məqsədilə yenidən təsnifləşdirilməsi aiddir.

Aşağıda sadalanan yeni standartlar və şərhlər bu maliyyə hesabatlarının hazırlanması üçün icbari qaydada müvafiq hesab olunmuş və keçən il qəbul edilməmişlər:

- BMS (Beynəlxalq Mühasibat Standartları) 39: Maliyyə Sənədləri: Təsdiq edilmə və Ölçü götürmə və BMHS 7 Maliyyə Sənədləri: "Maliyyə Aktivlərinin yenidən Təsnifatlandırılması" məlumatları (2008-ci ildə düzəliş edildiyi kimi) (Bu düzəlişlər 1 iyul 2008-ci il tarixdən qüvvəyə minmişdir. Bu, xüsusi hallarda, müəssisəyə qeyri-törəmə maliyyə aktivlərini (ilkin olaraq təsdiqlənmədən sonra müəssisə tərəfindən mənfəət və ya itki üzrə əsaslandırılmış dəyərində müəyyən olunmuş aktivlər istisna olunmaqla) mənfəət və ya itki üzrə əsaslandırılmış dəyərdən yenidən təsnifatlandırma imkanı verir. Bundan əlavə, bu düzəliş, həmçinin, müəssisəyə borclar və alacaqlar kateqoriyasına uyğun olan maliyyə aktivini (əgər həmin maliyyə aktivi satış üçün əlverişli olan kimi müəyyən edilməmişdirsə), əgər müəssisə həmin maliyyə aktivini müşahidə oluna bilən gələcək dövrə qədər saxlama istəyinə və qabiliyyətinə malikdirsə, satış-üçün-əlverişli olan kateqoriyasından borclar və alacaqlar kateqoriyasına köçürmə imkanı yaradır. Müəssisə həmin düzəlişləri 1 iyul 2008-ci il tarixdən etibarən tətbiq etməlidir).

## 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİNİN XÜLASƏSİ (davamı)

- BMHŞK (Beynəlxalq Maliyyə Hesabatları Şərhləri Komitəsi) 11: BMHS 2 – Qrup və Xüsusi Xəzinə Səhmləri Köçürmələri (2006-cı ildə buraxılmışlar) (Bu şərh 1 mart 2007-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün icbaridir. Qrup hesabları pay-əsaslı ödənişlərin köçürülməsi üçündür. Bu şərhin ilk dəfə tətbiq edilməsi pay-əsaslı ödənişlərin köçürülməsi barədə necə hesabat verildiyini mühüm dərəcədə dəyişdirməmişdir).

- MHŞK 12: Xidmət Konssesiya Müqavilələri (2006-cı ildə buraxılmışdır) (Bu şərh 1 yanvar 2008-ci il tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün icbaridir. Bu şərh ilə əhatə olunan başlıq bu kimi BMHS-nın hazırlanması üçün uyğun deyildir).

- BMHŞK 14: BMS 19: Müəyyən edilmiş Aktivlər üzərində Məhdudiyyət, Minimal Maliyyə Tələbləri və onların Qarşılıqlı Əlaqəsi (2007-ci ildə buraxılmışdır) (Bu şərh 1 yanvar 2008-ci il tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün icbaridir. Bu şərhə (a) gələcək ianələrdə ödənişlər və ya azalmaların əlverişli olacağı təqdirdə, (b) minimum maliyyə tələblərinin gələcək ianələrdə azalmaların əlverişli olmasına necə təsir göstərə biləcəyi və (c) minimum maliyyə tələblərinin öhdəliklərin həyata keçirilməsinə imkan verdiyi hallarda müraciət olunur. Bu şərh Assosiasiyanın təqaüd planlarının ölçülməsinə təsir etmir).

Şübhələrdən yayınmaq üçün, BMSİŞ (Beynəlxalq Mühasibat Standartları İdarəetmə Şurası) və BMHŞK tərəfindən 31 dekabr 2008-ci tarixdən əvvəl buraxılmış və hal-hazıradək qüvvəyə minməmiş aşağıda sadalanan standartlar və şərhlər daha əvvəllər qəbul edilməmişdir:

- BMHS 8: Əməliyyat Seqmentləri (2007-ci ildə buraxılmışdır) (Bu standart 1 yanvar 2009-cu il tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün icbaridir. Bu standart BMS 14-ü – Seqmentlər üzrə Hesabatvermə maddəsini əvəz edir və seqmentlər üzrə informasiyanın illik və aralıq maliyyə hesabatlarında necə təqdim olunacağı və açıqlanacağı üzərində təsirə malik olur. BMHS 8-ə uyğun olaraq, 2009-cu il ərzində buraxılacaq maliyyə hesabatlarında təqdim olunan seqmentlər üzrə məlumat Assosiasiyanın rəhbərliyi tərəfindən təmin olunan və istifadə olunan məlumat ilə əlaqədardır. Bu aktivlərin və öhdəliklərin ölçü nişanlarına təsir etməyəcəkdir).

- BMS 1: Maliyyə Hesabatlarının Təqdim olunması (2007-ci ildə düzəliş edildiyi kimi) (Bu standart 1 yanvar, 2009-cu il tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün icbaridir. Mahiyyət etibari ilə BMS 1-ə edilən bu düzəlişlər səhmdarın xüsusi kapitalındakı gəlirləri və dəyişikliklər barədə hesabat vermə formasını dəyişəcəkdir. BMS 1-ə edilən bu düzəlişlər aktivlərin və öhdəliklərin ölçü nişanlarına təsir etməyəcəkdir).

- BMS 23: Borcvermələr üzrə Xərclər (2007-ci ildə düzəliş edildiyi kimi) (Bu standart 1 yanvar 2009-cu il tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün icbaridir. Mahiyyət etibari ilə BMS 23-ə edilmiş bu düzəlişlər ixtisas aktivlərinin əldə edilməsi, tikintisi və ya istehsalı ilə birbaşa əlaqədar olan borcvermələr üzrə xərclərin dərhal xərc kimi tanınması variantını aradan qaldırır. BMS-nın hazırki variantı BMHS-nı hazırlayanlara belə borcvermələr üzrə xərcləri sərf etməyə və ya kapitallaşdırmağa imkan verir. Hal-hazırda, Assosiasiya tərəfindən seçilmiş mühasibat siyasəti belə borcvermələr üzrə xərcləri kapitallaşdırmaq üçün nəzərdə tutulmuşdur. Bunun yekunu olaraq, Assosiasiya bu düzəlişlərin tətbiq edilməsinin qəbul ediləcək hesabat vermə dövründə rəqəmlər və təqdimetmələr üzərində əhəmiyyətli təsirinin olacağı ilə nəticələnəcəyini əvvəlcədən görə bilmir).

- BMS 27: Ümumiləşdirilmiş və ayrıca maliyyə hesabatları, (2008-ci ildə düzəliş edildiyi qaydada) (Bu düzəliş 1 iyul, 2009-cu il tarixdə və ya daha sonra başlayan illik dövrlər üçün icbaridir və Biznes Kombinasiyaları II Faza adlanan sənədin bir hissəsidir. Daxil edilmiş düzəlişlərə əsasən adı "idarəolunmayan faizlər" kimi dəyişdirilən azlıq faizləri üzrə mühasibat uçotuna aiddir)

## 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİNİN XÜLASƏSİ (davamı)

- BMS 32: Maliyyə Alətləri: Təqdimetmə və BMS 1: Maliyyə hesabatlarının təqdim edilməsi (2008-ci ildə düzəliş edildiyi qaydada) (Bu düzəlişlər 1 yanvar, 2009-cu il tarixdə və ya daha sonra başlayan illik dövrlər üçün icbaridir və ləğvetmə ilə bağlı əmələ gələn qoyula bilən maliyyə alətləri və öhdəliklərə aiddir. Bu düzəliş bəzi qoyula bilən maliyyə alətləri, və digər sənədlər, və ya alətlərin tərkib hissələrinin təsnif edilməsinə aiddir ki, bunlar şirkətin xalis aktivlərinin proporsional payının digər tərəfə ötürülməsi öhdəliyini qurum üzərinə yalnız ləğvetmə baş verdikdə qoyur).

- BMS 39 Maliyyə Alətləri: Qəbul etmə və Ölçmə (2008-ci ildə düzəliş edilmiş qaydada) (Bu düzəliş 1 iyul, 2009-cu il tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburidir. O, Yararlı Sığortalanmış Vahidlərə aiddir və sığortalanmış riskin və ya nağd pul axınlarının bir hissəsinin qəbul olunması üçün yararlı olub olmamasını müəyyən edən prinsiplərin konkret vəziyyətlərdə necə tətbiq edilməli olduğuna aydınlıq gətirir).

- BMHS 1: BMHS və BMS 27-nin ilk dəfə qəbul olunması: Ümumiləşdirilmiş və ayrıca maliyyə hesabatları (2008-ci ildə düzəliş edilmiş qaydada) (Bu düzəliş 1 yanvar, 2009-cu il tarixdə və ya daha sonra başlayan dövrlər üçün məcburidir. Bu düzəliş BMHS-nı ilk dəfə qəbul etmiş şirkətlərə belə keçidlə bağlı bəzi praktiki çətinlikləri həll etməyə imkan verir və filiallar, birgə idarə olunan şirkətlər və ortaqlara yatırılmış sərmayələr və onların ayrıca maliyyə hesabatlarında maya dəyəri ilə və ya BMS 39-a müvafiq surətdə mühasibat uçotundan keçirilməsinə aiddir).

- BMHS 2: Pay əsaslı ödənişlər (2008-ci ildə düzəliş edildiyi kimi) (Bu standart 1 yanvar, 2009-cu il tarixdə və ya daha sonra başlayan illik dövrlər üçün məcburidir və hüquqverilmə şərtləri və ləğvetmə ilə əlaqədar bəzi açıqlamaları ehtiva edir).

- BMHS 3: Biznes Kombinasiyaları (2008-ci ildə düzəliş edilmiş qaydada) (Bu düzəliş 1 iyul, 2009-cu il tarixdə və ya daha sonra başlayan illik dövrlər üçün məcburidir və Biznes Kombinasiyaları II Faza adlanan sənədin bir hissəsidir. Bu layihə biznes kombinasiyaları üzrə mühasibat uçotunun necə aparılacağına dair mühüm düzəlişlər təqdim etmişdir. Digərləri sırasında, ən mühüm dəyişiklik şirkətlərə mülkiyyətin faiz nisbətindən asılı olmayaraq Qudvilin (firmanın dəyərinin) tam dəyərini qəbul etməyə imkan verən "Tam-Qudvil üzrə yanaşmanın" tətbiq olunmasıdır).

- BMSİŞ-nın illik təkmilləşdirilməsi üzrə layihə (2008-ci ildə buraxılmış müxtəlif standartlara düzəlişlər) (Qüvvəyə minmə tarixi düzəlişlərdən asılı olaraq dəyişir, lakin istənilən halda 1 yanvar, 2009-cu il tarixdən əvvəl deyildir. İllik təkmilləşdirmələr üzrə layihə BMHS-a təcili olmayan, lakin zəruri düzəlişlərin edilməsi üçün vasitə ilə təmin edir və müxtəlif BMHS-nı ehtiva edir. Bu düzəlişlər iki makrokateqoriyaya bölünür: 1) Təqdimetmə, qəbuletmə və ölçmə məqsədləri üzrə mühasibat uçotuna dəyişikliklərlə nəticələnən düzəlişlər və 2) mühasibat uçotuna təsiri olmayan və ya minimum təsir göstərən terminologiya və ya redaktə səciyyəli dəyişikliklər üzrə düzəlişlər. 1-ci kateqoriyaya daxil edilmiş təsirə məruz qalmış standartlar aşağıda göstərilənlərdir: BMHS 5 Satış və Dayandırılmış Əməliyyatlar üçün Saxlanmış Cari-olmayan aktivlər, BMS 1 Maliyyə Hesabatlarının Təqdim edilməsi, BMS 16 Əmlak, Zavod və Avadanlıq, BMS 19 İşçinin Qazancları, BMS 20 Dövlət Qrantları üzrə Mühasibat uçotu və Dövlət Yardımının açıqlanması, BMS 23 Borcvermələr üzrə Xərclər, BMS 27 Ümumiləşdirilmiş və ayrıca maliyyə hesabatları, BMS 28 Ortaqlara Sərmayələrin Yatırılması və BMS 31 Birgə Müəssisələrdə Faizlər, BMS 29 Hiperinflyasiyalı İqtisadiyyatlar üzrə Maliyyə Hesabatları, BMS 36 Aktivlərin Korlanması, BMS 38 Qeyri-maddi Aktivlər, BMS 39 Maliyyə Alətləri: Qəbul etmə və Ölçmə, BMS 40 Sərmayə Əmlakı, BMS 41 Kənd Təsərrüfatı. 2-ci kateqoriyaya daxil edilmiş təsirə məruz qalmış standartlar aşağıda sadalanan standartlardır: BMHS 7 Maliyyə Alətləri: Açıqlamalar, BMS 8 Mühasibat Uçotuna dair Siyasətlər, Qiymətlər və Səhvlər üzrə Mühasibat uçotuna dəyişikliklər, BMS 10 Hesabat Dövründən sonrakı Hadisələr, BMS 18 Gəlir, BMS 20 Dövlət Qrantları üzrə Mühasibat Uçotu və Dövlət Yardımının Açıqlanması, BMS 29 Hiperinflyasiyalı İqtisadiyyatlar üzrə Maliyyə Hesabatları, BMS 34 Müvəqqəti Maliyyə Hesabatları, BMS 40 Sərmayə Əmlakı, BMS 41 Kənd Təsərrüfatı).

## 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİNİN XÜLASƏSİ (davamı)

- BMHŞK 13: Müştərinin Loyallığı üzrə Proqram (2007-ci ildə buraxılmışdır) (Bu şərh 1 iyul, 2008-ci il tarixdə və ya daha sonra başlayan illik dövrlər üçün icbaridir. Bu şərhlə əhatə olunan mövzular Maliyyə Hesabatlarının bu məcmusunun hazırlanmasına aid deyil).

- BMHŞK 15: Daşınmaz əmlakın tikintisinə dair Müqavilələr (2008-ci ildə buraxılmışdır) (Bu şərh 1 yanvar, 2009-cu il tarixdə və ya daha sonra başlayan illik dövrlər üçün icbaridir və daşınmaz əmlakın tikintisini bilavasitə və ya subpodratçılar vasitəsilə həyata keçirən şirkətlərin əldə etdikləri gəlir və çəkdiyi xərclər üzrə mühasibat uçotuna aiddir).

- BMHŞK 16 Xarici Əməliyyatlara Xalis Sərmayə Qoyuluşlarının Sığortaları (2008-ci ildə buraxılmışdır) (Bu şərh 1 oktyabr, 2008-ci il tarixdə və ya daha sonra başlayan illik dövrlər üçün icbaridir və xarici əməliyyatlara xalis sərmayə qoyuluşlarından irəli gələn xarici valyuta ilə bağlı risklərini sığortalayan və sığorta üzrə mühasibat uçotunu BMS 39-a uyğun olaraq dəyərləndirmək niyyətində olan şirkətlərə tətbiq olunur. Xüsusilə də, bu Şərh təsisçi müəssisə kimi şirkətlərə aiddir və xarici əməliyyatlara xalis sərmayə qoyuluşlarının ümumiləşdirilmiş maliyyə hesabatları kimi daxil edilmiş maliyyə hesabatlarına aiddir).

Yuxarıda göstərilən standartların və şərhlərin məcburi xarakter alacağı vaxtdan asılı olmayaraq, Assosiasiya onların hamısını 31 dekabr, 2009-cu il tarixdə başa çatan il üzrə, əgər o zaman Assosiasiyaya uyğun olarsa, maliyyə hesabatlarında qəbul etməyi nəzərdə tutur.

Assosiasiya növbəti dövrlərdə qüvvəyə minəcək bütün yeni standartların, düzəlişlərin və şərhlərin mümkün təsirini dəyərləndirmişdir və onların 31 dekabr 2009-cu il tarixinə həyata keçirilən əməliyyatlara ciddi təsir etməyəcəyini ehtimal edir.

## ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİ

### Əsas tanınma və ölçülmə qaydaları

### Seqmentlər üzrə hesabat

Seqment Assosiasiyanın tamamilə fərqli bir istiqaməti kimi xidmət göstərən (kommersiya seqmenti) və ya müəyyən iqtisadi mühitdə xidmət göstərən (coğrafi seqment) və eyni zamanda risk və ya ayrılıqda gəlir predmeti olan fəaliyyəti şəklində tanımlanır. Xarici müştərilərdən alınan ümumi gəlirin böyük hissəsini cəlb edən seqment, ya da bütün digər seqmentlərinin gəlir, maliyyə nəticələri və aktivlərin dəyərlərinin on faizindən çox olan seqmentin ayrıca hesabatları hazırlanmalıdır. Bu maliyyə hesabatlarında ayrılıqda göstərilən coğrafi seqmentlər hüquqi risklərdən ziyadə iqtisadi risklər əsasında hazırlanmışdır.

### Pul və pul vəsaitlərinin ekvivalentləri

Pul və pul vəsaitlərinin ekvivalentləri elə aktivlərə deyilir ki, onları nəğd vəsaitlərə istənilən zaman tez bir şəkildə çevirmək mümkün olsun və bu zaman onların dəyərində çox cüzi bir fərq baş versin. Pul və pul vəsaitlərinin ekvivalentləri amortizasiya olunmuş maya dəyəri ilə ölçülür.

### Debitor borclar

Debitor borclar aktiv bazarda alınıb satıla bilməyən sabit və müəyyən ödənişi olan qeyri törəmə maliyyə aktivləridir. Assosiasiyanın qısa müddətdə və yaxın gələcəkdə satmağa çalışdığı aktivlər bu kateqoriyalı aktivlərə aid edilə bilməz. Bu aktivlər effektiv faiz metodundan istifadə edilərək qiymətdən düşmə və köhnəlmə xərcləri çıxılmaqla amortizasiya olunmuş dəyər ilə hesablanır. Qiymətdən düşmə xərci yalnız qiymətdən düşmənin olacağına dair kifayət qədər obyektiv sübut olduğu zaman tanınır. Bu şəkildə olduğu halda, aktivin qalıq dəyəri ehtiyatlar üzrə ayırmalar hesabı vasitəsi ilə azaldılır. Zərərin miqdarı mənfəət və gəlir hesabatında əks etdirilir.

## 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİNİN XÜLASƏSİ (davamı)

### Əmlak və avadanlıqlar

Binalar və avadanlıqlar yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla balansda tarixi dəyəri ilə tanınır. Köhnəlmə, əmlak və avadanlıqların qalıq dəyərinə onların faydalı iqtisadi ömrü nəzərə alınmaqla hesablanmış dərəcələrdən istifadə etməklə tətbiq edilir. Amortizasiya üzrə düz xətt üsulu ilə aşağıdakı dərəcələrdən istifadə edilir:

| **Əmlak və avadanlığın adı** | **%** |
|---|---|
| Mebel və avadanlıqlar | 20% |
| Kompüter avadanlıqları | 25% |

Hesabat tarixində binalar və avadanlıqların qalıq dəyəri, onlar üzrə əldə edilə biləcək bazar dəyəri ilə müqayisə edilir və əgər bazar dəyəri qalıq dəyərindən azdırsa, bu aktivlərin qalıq dəyəri bazar dəyərindəki məbləğə uyğunlaşdırılır.

### İstifadə edilməmiş qrantlar

Qrantla əlaqəli şərait formalaşdıqda, onunla əlaqəli xərclər əmələ gəldikdə və qrantın qəbul olması barədə əsaslı təminat əldə olunan zaman qrant tanınır. Öhdəliklərlə əlaqəli qrantlar ilkin olaraq istifadə olunmamış qrant kimi tanınır və eyni müddətə Assosiasiya həmin məsrəflərdən əgər mənfəət əldə edirsə o zaman mənfəət və zərər hesabatına keçirilir. Qrantlar təsdiq olunmuş büdcəyə əsasən istifadə olunur.

### Kreditor borclar

Kreditor borclar qarşı tərəflərin müqaviləyə əsasən öz öhdəliklərini yerinə yetirməsi ilə yığılır və balans dəyəri ilə tanınır. Daha sonra effektiv faiz dərəcəsi istifadə edilməklə amortizasiya olunmuş dəyər ilə ölçülür.

### Təxirə salınmış gəlir

Təxirə salınmış gəlir Assosiasiyanın müqaviləyə əsasən öz öhdəliklərini yerinə yetirdikcə yığılır və balans dəyəri ilə hesablanır.

### Xarici valyuta məzənnələri

Maliyyə hesabatlarının hazırlanması zamanı Assosiasiya tərəfindən istifadə edilən il sonu valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2008** | **31 dekabr 2007** |
|---|---|---|
| AZN/1 ABŞ Dolları | 0.8010 | 0.8453 |

### Əhəmiyyətli mühasibat təxminləri və rəyləri

Assosiasiya maliyyə hesabatını Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun hazırlayarkən, qeydlərdə təqdim olunan aktivlərin və öhdəliklərin qalıq dəyəri və mənfəət və zərəri təqdim edərkən bəzi mühüm rəylər, təxminlər və fərziyyələr etmişdir.
Assosiasiya mütəmadi olaraq təxmin və fərziyyələri nəzərdən keçirərək maliyyə hesabatı hazırlanarkən təqdim olunan məlumatlara uyğun gəldiyini yoxlayırlar. Lakin, bu faktiki rəqəmlərin təxmin olunanlardan fərqlənməsinə mane olmur.

## 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİNİN XÜLASƏSİ (davamı)

Əsas rəylər, təxminlər və fərziyyələr rəhbərliyin əsas müzakirə mövzusudur.

Balans hesabatı təqdim olunan zaman rəhbərlik maliyyə hesabatında tanınan məbləğlərə uyğun əsaslı rəy, təxmin və fərziyyələr edir.

**Gəlirlərin tanınması**

Xidmətlərdən əldə olunan gəlirlərin və əldə olunan qrantların mənfəət hesabatında tanınması həmin dövr üçün bu xidmət və xərclərin baş verdiyi zaman həyata keçirilir.

**Ümidsiz borclara görə yaranan ehtiyat**

Müştərilərdən (üzvlər) alınan məbləğlərin yenidən bərpa miqdarını müəyyən etmək üçün qiymətdən düşməyə dair obyektiv sübut tələb olunur. Ümidsiz borclar tanındığı zaman xərcə silinir. Əlavə olaraq, bu mümkün ola bilən qiymətdən düşmə və yığıla bilməməzlik hər bir maddə üçün ayrıca müəyyən edilir. Bu prosesin mümkün olmadığı hallarda, dəyəsizləşmənin qiymətləndirilməsi kollektiv olaraq yerinə yetirilir. Nəticədə, fərdi və kollektiv qiymətləndirmə yerinə yetirilir və dəyərsizləşmənin obyektiv sübutunun tanınması mühüm mühakimə tələb edir və bu balans hesabatı təqdim olunan zaman debitor borclarının qalıq dəyərinə çox mənfi təsir göstərəcəkdir.

**Gözlənilməz öhdəliklər**

Assosiasiyanın məruz qaldığı gözlənilməz öhdəliklər, iqtisadi mənfəətə təsir edəcək resursların xarıc olması ehtimalının zəif olduğu hallarda birbaşa maliyyə hesabatlarında deyil, hesabatın qeydlərində öz əksini tapır.

Gözlənilməz öhdəliklər keçmişdə baş vermiş hadisələr zamanı əmələ gəlir və varlığı gələcəkdə tamamilə Assosiasiyanın idarəsi xaricində baş verəbiləcək və ya bilməyəcək qeyri-müəyyən hadisələrdən əmələ gələn və eyni zamanda resursların xaric olunmasına səbəb ola biləcək öhdəliklərdən ibarətdir. Əlavə olaraq, öhdəliyin məbləği kifayət qədər dəqiq şəkildə hesablana bilmir.

Qaçınılmaz haldır ki, Assosiasiyanın iqtisadi mənfəətinə təsir edəcək resursların xaric olması ehtimalının müəyyənləşdirilməsi və gələcəkdə baş verə biləcək və ya baş verə bilməyəcək qeyri-müəyyən hadisələrin Assosiasiyanın nəzarətində olmaması ehtimalını müəyyənləşdirməd də mühüm rəy tələb edir.

## 3. SEQMENT ÜZRƏ TƏHLİL

**Biznes seqmentləri üzrə ilkin təhlil**

İdarəetmə məqsədləri üçün Assosiasiya iki əsas əməliyyat bölməsindən təşkil edilir: qrant, qeyri-qrant.

Aşağıdakı cədvəllər gəlir və biznes seqmentlərində əldə olunan gəlirlərin maliyyə hesabatlarındakı yekun məlumatlarla məruzə oluna bilən seqmentlərin uyğunlaşdırılmasını təqdim edir.

## 3. SEQMENT ÜZRƏ TƏHLİL (davamı)

**31 dekabr 2008-ci bitən il üzrə**

| | QRANT | QEYRİ-QRANT | BÖLÜŞDÜ-RÜLMƏMİŞ | CƏMİ |
|---|---|---|---|---|
| **Seqmentlər üzrə gəlir** | | | | |
| Üzvlük haqları | - | 39,000 | - | 39,000 |
| Təlimlər, kurslar və konfransdan gəlir | - | 167,533 | - | 167,533 |
| Qrant gəliri | 150,418 | - | - | 150,418 |
| **Cəmi seqmentlər üzrə gəlir** | **150,418** | **206,533** | **-** | **356,951** |
| **Xərclər** | | | | |
| Qrant proqramlarına çəkilən xərclər | (150,418) | - | - | (150,418) |
| Əməliyyat xərcləri | - | (105,866) | - | (105,866) |
| **CƏMİ SEQMENTLƏR ÜZRƏ XƏRCLƏR** | **(150,418)** | **(105,866)** | **-** | **(256,284)** |
| **SEQMENTLƏR ÜZRƏ ÜMUMİ GƏLİR** | **-** | **100,667** | **-** | **100,667** |
| Digər gəlirlər | - | - | 1,004 | 1,004 |
| İnzibati xərclər | - | - | (95,144) | (95,144) |
| **İLLİK XALİS MƏFƏƏT/(ZƏRƏR)** | **-** | **100,667** | **(94,140)** | **6,527** |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 10,911 | 19,516 | - | 30,427 |
| Debitor borcu | 3,057 | 1,411 | - | 4,468 |
| **Cəmi seqmentlər üzrə aktivlər** | **13,968** | **20,927** | **-** | **34,895** |
| Bina və avadanlıqlar | - | - | 5,701 | 5,701 |
| Digər aktivlər | - | - | 2,716 | 2,716 |
| **CƏMİ AKTİVLƏR** | **13,968** | **20,927** | **8,417** | **43,312** |
| İstifadə edilməmiş qrantlar | 13,968 | | | 13,968 |
| Təxirə salınmış gəlir | - | 4,514 | 3,350 | 7,864 |
| **Cəmi seqmentlər üzrə öhdəliklər** | **13,968** | **4,514** | **3,350** | **21,832** |
| Kreditor borcu | - | - | 9,925 | 9,925 |
| **CƏMİ ÖHDƏLİKLƏR:** | **13,968** | **4,514** | **13,275** | **31,757** |

## 3. SEQMENT ÜZRƏ TƏHLİL (davamı)

**31 dekabr 2007-ci bitən il üzrə (audit olunmayıb)**

| | QRANT | QEYRİ-QRANT | BÖLÜŞDÜ-RÜLMƏMİŞ | CƏMİ |
|---|---|---|---|---|
| **Seqmentlər üzrə gəlir** | | | | |
| Üzvlük haqları | - | 22,735 | - | 22,735 |
| Təlimlər, kurslar və konfransdan gəlir | - | 20,675 | - | 20,675 |
| Qrant gəliri | 18,690 | - | - | 18,690 |
| **Cəmi seqmentlər üzrə gəlir** | **18,690** | **43,410** | **-** | **62,100** |
| **Seqmentlər üzrə xərclər** | | | | |
| Qrant proqramlarına çəkilən xərclər | (18,690) | - | - | (18,690) |
| Əməliyyat xərcləri | - | (7,453) | - | (7,453) |
| **CƏMİ SEQMENTLƏR ÜZRƏ XƏRCLƏR** | **(18,690)** | **(7,453)** | **-** | **(26,143)** |
| **SEQMENTLƏR ÜZRƏ GƏLİRLƏR** | **-** | **35,957** | **-** | **35,957** |
| Digər gəlirlər | - | - | 6,259 | 6,259 |
| İnzibati xərclər | - | - | (39,320) | (39,320) |
| **İLLİK XALİS MƏFƏƏT/(ZƏRƏR)** | **-** | **35,957** | **(33,061)** | **2,896** |

| | | | | |
|---|---|---|---|---|
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 34,653 | 1,609 | - | 36,262 |
| Debitor borclar | 2,422 | 3,742 | - | 6,164 |
| **Cəmi seqmentlər üzrə aktivlər** | **37,075** | **5,351** | **-** | **42,426** |
| Əmlak və avadanlıqlar | - | - | 1,552 | 1,552 |
| Digər aktivlər | - | - | 128 | 128 |
| **CƏMİ AKTİVLƏR** | **37,075** | **5,351** | **1,680** | **44,106** |
| İstifadə edilməmiş qrantlar | 37,075 | - | - | 37,075 |
| Təxirə salınmış gəlir | - | - | - | - |
| **Cəmi seqmentlər üzrə öhdəliklər** | **37,075** | **-** | **-** | **37,075** |
| Kreditor borclar | | | 2,003 | 2,003 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **37,075** | **-** | **2,003** | **39,078** |

## 4. ÜZVLÜK HAQLARI

| | 31 dekabr 2008-ci bitən il üzrə | 31 dekabr 2007-ci bitən il üzrə (audit olunmayıb) |
|---|---|---|
| Üzvlük haqları | 39,000 | 22,735 |
| **Cəmi üzvlük haqları** | **39,000** | **22,735** |

31 dekabr 2008-ci il 1,500 AZN və 31 dekabr 2007-ci il tarixlərinə üzvlük haqqı 1,000 AZN təşkil edir. Assosiasiyanın 31 dekabr 2008-ci il üzvlərinin sayı 26 və 31 dekabr 2007-ci il tarixlərinə 22 təşkil edir.

## 5. TƏLİMLƏR, KURSLAR VƏ KONFRANSDAN GƏLİR

| | 31 dekabr 2008-ci bitən il üzrə | 31 dekabr 2007-ci bitən il üzrə (audit olunmayıb) |
|---|---|---|
| **Təlimlər, kurslar və konfransdan gəlir** | | |
| Təlim haqları | 73,252 | 19,925 |
| 4-cü AMA konfransı | 72,982 | - |
| CAP kursları | 16,274 | - |
| AMA Təltif Mərasimi | 5,025 | 750 |
| **Cəmi təlimlər, kurslar və konfransdan gəlir** | **167,533** | **20,675** |

Audit yoxlama zamanı, Azərbaycan Mikromaliyyə Assosiasiyası ictimai birliyi təlim və üzvlük haqlarından 73,252 AZN, Konfransın təşkilindən 72,982 AZN və digər mənbələrdən 21,299 AZN gəlir əldə etmişdir.

## 6. QRANT GƏLİRLƏRİ VƏ QRANT PROQRAMLARINA ÇƏKİLƏN XƏRCLƏR

| | 31 dekabr 2008-ci bitən il üzrə | 31 dekabr 2007-ci bitən il üzrə (audit olunmayıb) |
|---|---|---|
| **Qrant üzrə gəlirlər** | | |
| Sosial Fəaliyyətin İdarə Edilməsi (ICCO qrantı) | 66,318 | 185 |
| Mikromaliyyə göstəricilərinin təsirinin qiymətləndirilməsi - ACDI-VOCA hissəsi | 33,867 | - |
| Mikromaliyyə göstəricilərinin təsirinin qiymətləndirilməsi - BP hissəsi | 27,389 | - |
| A / V İnstitusional İnkişaf (ACDI/VOCA) | 11,249 | 12,182 |
| CAP Qrantı | 10,255 | - |
| SEEP Qrantı | 1,340 | 1,149 |
| Müqayisəli Təhlil layihəsi | - | 4,931 |
| Gender layihəsi (ADB) | - | 243 |
| **Cəmi qrantlar üzrə gəlir** | **150,418** | **18,690** |

## 6. QRANT GƏLİRLƏRİ VƏ QRANT PROQRAMLARINA ÇƏKİLƏN XƏRCLƏR (davamı)

| **Qrant proqramlarına çəkilən xərclər** | **31 dekabr 2008-ci bitən il üzrə** | **31 dekabr 2007-ci bitən il üzrə** (audit olunmayıb) |
|---|---|---|
| Sosial Fəaliyyətin İdarə Edilməsi (ICCO qrantı) | 66,318 | 185 |
| Mikromaliyyə göstəricilərinin təsirinin qiymətləndirilməsi - ACDI-VOCA hissəsi | 33,867 | - |
| Mikromaliyyə göstəricilərinin təsirinin qiymətləndirilməsi - BP hissəsi | 27,389 | - |
| A / V İnstitusional İnkişaf (ACDI/VOCA) | 11,249 | 12,182 |
| CAP Qrantı | 10,255 | - |
| SEEP Qrantı | 1,340 | 1,149 |
| Müqayisəli Təhlil layihəsi | - | 4,931 |
| Gender layihəsi (ADB) | - | 243 |
| **Cəmi qrant proqramlarına çəkilən xərclər** | **150,418** | **18,690** |
| **Qrantlar üzrə xalis gəlir** | **-** | **-** |

### 2008-ci il ərzində qrant proqramlarına çəkilən xərclər aşağıdakılardır:

| **Xərclərin adı** | **İM** | **A / V İnstitusional İnkişaf (ACDI/VOCA)** | **SEEP** | **CAP** | **SPM** | **CƏMİ** |
|---|---|---|---|---|---|---|
| Əmək haqları və müavinətlər | 18,580 | 378 | - | 5,649 | 17,317 | 41,924 |
| İcarə xərcləri | 2,701 | - | - | 700 | 1,800 | 5,201 |
| Təlim xərcləri | - | 2,711 | - | 2,130 | - | 4,841 |
| CAP üzrə layihə xərcləri | - | - | - | 1,632 | - | 1,632 |
| AMA Təltif Mərasim xərcləri | - | 1,020 | - | - | - | 1,020 |
| Rabitə xərcləri | 465 | - | - | 124 | 528 | 1,117 |
| Tərcümə xərcləri | 1,410 | - | - | - | - | 1,410 |
| Nəqliyyat xərcləri | 575 | - | - | - | 1,383 | 1,958 |
| İnternet | 20 | - | - | - | 451 | 471 |
| Ezamiyyət xərcləri | 1,354 | 5,140 | 1,340 | - | 2,131 | 9,965 |
| Bank komissiyaları | 80 | - | - | - | 504 | 584 |
| Çatdırma xərcləri YAPS | 13 | - | - | 20 | 129 | 162 |
| Matriks veb-yönümlü tərtibat xərcləri | - | 2,000 | - | - | - | 2,000 |
| Ofis ləvazimatı | 222 | - | - | - | 736 | 958 |
| Çap xərcləri | 998 | - | - | - | 150 | 1,148 |
| AMA Strateji Planı | - | - | - | - | 6,500 | 6,500 |
| Digər xərclər | 5,752 | - | - | - | 1,071 | 6,823 |
| ICCO layihə xərcləri | - | - | - | - | 33,618 | 33,618 |
| Sub-podratçı üzrə 50% avans | 29,086 | - | - | - | - | 29,086 |
| | **61,256** | **11,249** | **1,340** | **10,255** | **66,318** | **150,418** |

## 7. DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ

Digər əməliyyat xərcləri aşağıdakılardır:

| | **31 dekabr 2008-ci bitən il üzrə** | **31 dekabr 2007-ci bitən il üzrə** (audit olunmayıb) |
|---|---|---|
| Təlim xərcləri | 53,777 | 7,436 |
| 4-cü AMA Konfrans xərcləri | 39,447 | 17 |
| CAP layihə xərcləri | 7,215 | - |
| AMA Təltif Mərasimi | 5,427 | - |
| **Cəmi digər əməliyyat xərclər** | **105,866** | **7,453** |

## 8. DİGƏR GƏLİR

| **Digər gəlir** | **31 dekabr 2008-ci bitən il üzrə** | **31 dekabr 2007-ci bitən il üzrə** (audit olunmayıb) |
|---|---|---|
| Maliyyə yardımı | 415 | 100 |
| Digər | 589 | 6,159 |
| **Cəmi digər gəlir** | **1,004** | **6,259** |

## 9. İNZİBATİ XƏRCLƏR

İnzibati xərclər aşağidakilardir:

| | **31 dekabr 2008-ci bitən il üzrə** | **31 dekabr 2007-ci bitən il üzrə** (audit olunmayıb) |
|---|---|---|
| Əmək haqları və müavinətlər | 43,595 | 24,499 |
| Ezamiyyət xərcləri | 10,493 | 1,698 |
| Audit xərci | 10,000 | 531 |
| Nəqliyyat xərcləri | 4,517 | - |
| Çap xərcləri | 4,066 | - |
| İcarə xərcləri | 3,367 | 4,099 |
| Ofis ləvazimatı | 1,415 | 836 |
| Rabitə xərcləri | 1,382 | 841 |
| İnzibati xərclər | 1,449 | 768 |
| Bank komissiyaları | 1,288 | 475 |
| Amortizasiya | 695 | 517 |
| AMA Strateji Planı | 1,199 | - |
| İnternet | 889 | 684 |
| Çatdırma xərcləri YAPS | 660 | 131 |
| MFC/EMP üzvlük haqları | 478 | - |
| Əsas vəsaitlərin yenidən qiymətləndirilməsi zərəri | 93 | - |
| Tərcümə xərcləri | - | 3,057 |
| Matriks veb-yönümlü tərtibat xərcləri | - | 400 |
| Digər xərclər | 9,558 | 784 |
| **Cəmi inzibati xərclər** | **95,144** | **39,320** |

## 9. İNZİBATİ XƏRCLƏR (davamı)

İnzibati xərclər digər administrativ xərclər olub qrantla birbaşa əlaqəli xərclər deyildir. Belə ki, yuxarıda göstərilən cədvəldə qeyri-qrant xərclər qeyd olunmuşdur.

Orta hesabla, Azərbaycan Mikromaliyyə Assosiasiyasının 7 (yeddi) işçi heyəti vardır (xidmət müqaviləsi əsasında fəaliyyət göstərənlər də daxil olmaqla). 31 dekabr 2007-ci il tarixinə Assosasiyanın işçilərinə heç bir borcu yoxdur. İl ərzində, cəmi 85,519 AZN maaş hesablanmış və 85,519 AZN ödənilmişdir. Belə ki, 31 dekabr 2008-ci il tarixinə Assosasiyanın işçilərinə heç maaş borcu mövcud deyil.

10 sentyabr 2007-ci il tarixinə baş nazirin müavini və Beynəlxalq Humanitar Yardım Dövlət Komissiyasının sədri cənab Ə.Həsənov tərəfində imzalanan 27/1-238 nömrəli məktuba əsasən sosial sığorta haqqında qanuna əsasən nəzərdə tutulan əmək haqqından 22%-lik tutulmalar Assosiasiyanın işçilərinin əmək haqları hesablanarkən tətbiq olunmayacaq. Həmin məktubda Azərbaycan Mikromaliyyə Assosiasiyasının adı hesablanmış əmək haqqından 22%-lik məcburi tutulmalardan azad edilən beynəlxalq və yerli humanitar təşkilatlar sırasında qeyd edilmişdir.

## 10. PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ

| | **31 dekabr 2008-ci bitən il üzrə** | **31 dekabr 2007-ci bitən il üzrə** (audit olunmayıb) |
|---|---|---|
| Pul vəsaitləri milli valyutada | 1,587 | 241 |
| Bankda olan pul vəsaitləri milli valyutada | 9,944 | 35,241 |
| Bankda olan pul vəsaitləri xarici valyutada (ABŞ dolları) | 18,896 | 780 |
| **Cəmi pul və pul vəsaitlərinin ekvivalentləri** | **30,427** | **36,262** |

## 11. DEBİTOR BORCLAR

Debitor borclar aşağıdakılardır:

| | **31 dekabr 2008-ci bitən il üzrə** | **31 dekabr 2007-ci bitən il üzrə** (audit olunmayıb) |
|---|---|---|
| Üzvlərdən alınacaq təlim haqları | 1,411 | 509 |
| Üzvlərdən alınacaq üzvlük haqları | 8,493 | 3,233 |
| Gözlənilən qrant məbləği | 3,057 | 2,422 |
| Çıxılsın ümidsiz borclar üzrə ehtiyat | (8,493) | - |
| **Cəmi debitor borclar** | **4,468** | **6,164** |

## 12. ƏMLAK VƏ AVADANLIQLAR

Əmlak və avadanlıqlar aşağıdakılardan ibarətdir:

| | Mebel və qurğular | Kompüter və rabitə avadanlıqları | Cəmi |
|---|---|---|---|
| **Balans dəyəri** | | | |
| 31 dekabr 2006 (audit olunmayıb) | **-** | **3,591** | **3,591** |
| Əlavələr | - | - | - |
| 31 dekabr 2007(audit olunmayıb) | **-** | **3,591** | **3,591** |
| Əlavələr | 277 | 78 | 355 |
| Yenidənqiymətləndirmə | 1,842 | 2,647 | 4,489 |
| 31 dekabr 2008 | **2,119** | **6,316** | **8,435** |
| **Yığılmış amortizasiya** | | | |
| 31 dekabr 2006 (audit olunmayıb) | **-** | **1,522** | **1,522** |
| İllik amortizasiya | - | 517 | 517 |
| 31 dekabr 2007 (audit olunmayıb) | **-** | **2,039** | **2,039** |
| İllik amortizasiya | 111 | 584 | 695 |
| 31 dekabr 2008 | **111** | **2,623** | **2,734** |
| **Qalıq dəyəri** | | | |
| **31 dekabr 2008** | **-** | **1,552** | **1,552** |
| **31 dekabr 2007** | **2,008** | **3,693** | **5,701** |

Qeyd etmək lazımdır ki, 2007-ci ildə 2-ci layihənin donoru (ACDİ/VOCA-nın təmsilçisi) Assosiasiyaya proyekti həyata keçirmək üçün 16,140 AZN məbləğində əmlak və avadanlıqlar bağışlamışdır. Bu əsas vəsaitlər təhvil alınandan sonra müstəqil qiymətləndirici tərəfindən yenidənqiymətləndirilmişdir.

## 13. İSTİFADƏ OLUNMAMIŞ QRANTLAR

İstifadə olunmamış qrantlar aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2008-ci bitən il üzrə | 31 dekabr 2007-ci bitən il üzrə<br>(audit olunmayıb) |
|---|---|---|
| Sosial Fəaliyyətin İdarəedilməsi (ICCO layihə) | 13,968 | 37,075 |
| **Cəmi istifadə olunmamış qrantlar** | **13,968** | **37,075** |

Cəmi qəbul edilmiş pul vəsaitləri və sərf edilmiş qrantlar aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2008-ci bitən il üzrə | 31 dekabr 2007-ci bitən il üzrə<br>(audit olunmayıb) |
|---|---|---|
| Alınmış qrantlar | 163,300 | 53,343 |
| Sərf edilmiş qrantlar | (152,389) | (19,886) |
| İlin sonuna gözlənilən qrantlar | 3,057 | 2,422 |
| İlin əvvəlinə alınmış qrantlar | - | 1,196 |
| **Cəmi istifadə olunmamış qrantlar** | **13,968** | **37,075** |

## 14. KREDİTOR BORCLAR

Kreditor borclar aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2008-ci bitən il üzrə | 31 dekabr 2007-ci bitən il üzrə<br>(audit olunmayıb) |
|---|---|---|
| Audit xərci | 8,000 | - |
| Matriks veb- yönümlü tərtibatı xərcləri | 1,925 | 2,000 |
| İşçilər üzrə öhdəliklər | - | 3 |
| **Cəmi kreditor borclar** | **9,925** | **2,003** |

## 15. TƏXİRƏ SALINMIŞ GƏLİR

Təxirə salınmış gəlir aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2008-ci bitən il üzrə | 31 dekabr 2007-ci bitən il üzrə<br>(audit olunmayıb) |
|---|---|---|
| Qrantla alınmış əsas vəsaitlər | 4,489 | - |
| Gələcək dövrün gəliri (qeyri-qrant fəaliyyəti) | 3,375 | - |
| **Cəmi təxirə salınmış gəlir** | **7,864** | **-** |

## 16. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

***Vergi qanunvericiliyi.***

Azərbaycanın vergi qanunvericiliyi tez-tez baş verən dəyişikliklər görə müzakirə mövzusudur. Rəhbərliyin bu qanunvericiliyi anlaması və Assosiasiyanın sövdələşmələrində və fəaliyyətlərində tətbiqi vergi nümayəndələri tərəfindən başqa formada yorumlana bilər.

Assosiasiya mikromaliyyə sektorunun inkişafı və gəlirinin artırılması üçün beynəxlaq təlim və konfranslar təşkil etmişdir. Bu fəaliyyətlər Assosiasiyanın nizamnaməsində əks olunan məqsəd və hədəflərinə uyğun şəkildə həyata keçirilir. Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən gəlirlərini qrant, üzvlük haqqı və ianələrdən əldə edən qeyri mənfəət təşkilatları mənfəət vergisindən azaddırlar. Lakin, vergi qanunvericiliyi spesifik olaraq yuxarıda sadalanan fəaliyyətlərdən də əldə edilən gəlirin mənfəət vergisindən azad olub-olmadığını qeyd etmir. Assosiasyinan rəhbərliyi hesab edir ki, Assosiasiyanın fəaliyyəti mənfəət əldə etmək məqsədli deyildir və bu səbəbdən də mənfəət vergisindən azad olmalıdır.

Azərbaycan vergi nümayəndələri qanunvericiliyin izahında tutucu mövqe tutub keçmiş dövrdə vergiyə cəlb olunmayan kimi göstərilən fəaliyyətlərdən əldə edilən gəliri hazırki dövrdə vergiyə cəlb edilən kimi göstərə bilərlər.

Nəticədə, mühüm məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi ilinə aid olan məlumatlar 3 təqvim il üçün vergi nümayəndələrinin təftişinə açıqdır və bəzi müəyyən şəraitlərdə yenidən nəzərdə keçirmə müddəti daha da uzun ola bilər. Rəhbərliyin təxminlərinə görə şərti öhdəliklərdən hər hansı bir itki və ya zərər gözlənilmir.

## 17. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

BMS 24 “Əlaqəli tərəflərlə bağlı qeydlər” standartının tələblərinə əsasən əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Assosiasiyanın birbaşa, dolayısı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Assosiasiyanın fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Assosiasiyanın fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;

(b) Assosiasiya edilmiş müəssisələr – Assosiasiya tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;

(c) Assosiasiyanın tərəf kimi çıxış etdiyi birgə müəssisələr;

(d) Assosiasiyanın və ya ana şirkətin idarə heyətinin üzvləri;

(e) (a) və ya (d) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;

(f) (d) və ya (e) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayısı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr və birgə müəssisələr aiddir; və ya

(g) İş müddəti bitdikdən sonra Assosiasiyanın keçmiş işçiləri və ya Assosiasiyanın əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

## 16. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR (davamı)

| | 31 dekabr 2008-ci bitən il üzrə | | 31 dekabr 2007-ci bitən il üzrə (audit olunmayıb) | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| Üzvlük haqqı | | 39,000 | | 22,735 |
| - *Təşkilatın təsisçiləri* | 12,000 | | 9,735 | |
| Təlimlər, kurslar və konfranslardan gəlir | | 167,533 | | 20,675 |
| - *Təşkilatın təsisçiləri* | 64,900 | | 6,940 | |
| Ödəniş cədvəli və əmək haqqları | | 43,595 | | 24,499 |
| - *Rəhbər işçilər* | 26,773 | | 15,162 | |